# Azərbaycandakı tolerantlıq mühitini yüksək qiymətləndirirəm

❒ ***Azərbaycan dünyada multikultural və tolerantlıq ənənələri ilə yanaşı, həm də müxtəlif dini konfessiyaların rahat və sülh şəraitində birgə yaşadığı ölkə kimi tanınır. Odur ki, dünyanın aparıcı dini liderlərinin Bakıda ikinci dəfə toplaşaraq fikir mübadiləsi aparmaları olduqca önəmli hadisədir. Ölkəmizdə keçirilən dünya dini liderlərinin II Bakı sammitində iştirak edən Avstriya Süryani Ortodoks Dini İcmasının rəhbəri, professor Emmanuel Aydın sammitin əhəmiyyəti barədə fikirlərini bölüşüb:***



– Sözsüz ki, bu sammitin və görüşlərin əhəmiyyəti böyükdür. Xatırladım ki, keçən il Şeyxülislam həzrətləri Allahşükür Paşazadənin dəvəti ilə Vyanada keçirilmiş toplantıda iştirak etmişdim. Həmin toplantının nəticəsi olaraq, Bakıda bu sammit gerçəkləşdi. Dünya liderlərinin Bakıda bir araya gəlməsi Prezident İlham Əliyevin qətiyyəti nəticəsində baş tutdu. Dünyada sülh və əmin-amanlığın bərqərar olması üçün sammitin əhəmiyyətini yüksək qiymətləndirirəm.

Sülh və ədalətin bərqərar olması ilə bağlı sammitdə çıxışım da nəzərdə tutulub. Bu mövzuda iki məsələyə toxunmaq istəyirəm. Dünyada etibarlı sülhə nə üçün nail ola bilmirik? Birinci əsas səbəb odur ki, bir sıra siyasətçilər öz şəxsi maraqlarından çıxış edərək və ya iqtisadi məğlubiyyətlərini ört-basdır etmək üçün dini pərdə altında qarşıdurma yaradırlar. İkinci səbəb kimi problemlərlə üzləşən fərdlərin içində ədalət və sülhə olan inamın yoxa çıxdığını deyə bilərəm.

Düşünürəm ki, həqiqətən, dünyada sülhün bərqərar olmasını dəstəkləyən din xadimləri arasında koordinasiyanın olması çox önəmlidir. Azərbaycan və qonşu ölkələr arasında sülhün olması bütün dünyaya da güvən və etimad yaradar.

Azərbaycanda, həqiqətən, tolerantlıq mühitini, digər konfessiya nümayəndələrinə olan sayğı və hörməti görürəm. İlk dəfə olaraq, Azərbaycanda mövcud olan alban kilsələrinin qorunması və udi icması haqqında eşitdim. Düşünürəm ki, Azərbaycanın bu istiqamətdə fəaliyyətini davam etdirməsi digər dünya ölkələri üçün də tolerantlıq baxımından nümunədir. Artıq ikinci dəfədir ki, ölkənizin təşkil etdiyi bu tədbirdə iştirak edirəm. Təqdirəlayiq haldır ki, Azərbaycanın iqtisadi gücü və nüfuzu bu cür beynəlxalq tədbir və toplantıların təşkilində yüksək rol oynayır.

Odur ki, II sammitin fəaliyyətini və müzakirə edilən məsələləri, din xadimləri arasında səmərəli fikir mübadiləsi aparılmasını yüksək qiymətləndirirəm. Düşünürəm ki, bu sammit müxtəlif mədəniyyətlər və dinlər arasında əlaqələrin genişlənməsinə, qarşılıqlı etimad mühitinin yaradılması işinə töhfələrini verəcək. Azərbaycan xalqına səmimi qəlbdən sülh və əmin-amanlıq arzu edir, sammitin yüksək təşkilinə görə Prezident İlham Əliyev və Şeyxülislam Allahşükür Paşazadəyə dərin təşəkkürümü bildirirəm.

***Əfsanə BAYRAMQIZI,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2019.- 15 noyabr. S. 7.